ədalət.- 2021.- 17 iyun.- S.5.

***15 iyunda Cənab Prezident İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşaya səfəri bütün ictimaiyyətin diqqətinə çatdırıldı. Görüş zamanı isə "Şuşa" bəyannaməsi də imzalandı. "Ədalət qəzeti"-nin keçirdiyi sorğuda ictimaiyyət adamları bu barədə öz təəssüratlarını bölüşdülər.***



**Xalq şairi, Vətəndaş Həmrəyliyi Partiyasının sədri, Millət vəkili Sabir Rüstəmxanlı:** Bəyannamə haqqında onu demək olar ki, bu, tarixi bir hadisədir, tarixə şahidlik etmişik. Qardaş Türkiyə ilə Azərbaycan arasında olan bu bəyannamə gələcəkdə baş verə

# "Bir millət, iki dövlət"

biləcək bir çox hadisənin talehini həll elədi, eyni zamanda hər iki dövlətin bir-birinə daim dəstək olacağının bariz nümunəsi, tarixi qələbəmizi nişanəsidir.



**Yazıçı, Kulis.az saytının baş redaktoru Şərif Ağayar:** Türkiyənin, şəxsən Ərdoğanın Qarabağ müharibəsindən tutmuş Şuşada əl çalıb rəqs eləməsinə qədər bütün hərəkətlərini əsl qardaşlıq nümunəsi hesab edirəm. Mən siyasətçilərə çox da inanmıram, lakin onun bütün jestlərinin həm də böyük türk xalqının iradəsi olduğunu bilirəm və bu, məni sevindirir. Türkiyə olmasa, biz Qafqazda yiyəsizik. Nə qədər güclü ordumuz da olsa, qəhrəman oğullarımız da olsa, balaca ölkəyik. Bizdən asılı olmayan reallıqdır bu. Nə yaxşı Türkiyə var, nə yaxşı bu böyük və güclü dövlətlə qardaşlığımız var.



**Şair, Kaspi qəzetinin baş redaktoru Fərid Hüseyn:** Şuşa Bəyannaməsi müddətli yox, əbədi müqavilə, silinməz möhür oldu. Cənab Prezident və Cənab Ərdoğan sözün geniş mənasında dünyaya həmin torpaqların əsl sahiblərini göstərdilər. Qars müqaviləsi təzələndi.

Şuşa Bəyannaməsi Azərbaycanı və Türkiyəni qüdrətləndirdi. Bu sənəd həm də ölkə vətəndaşlarının daha əmin-əman, güclü ölkədə yaşayacaqlarına inamlarını artırdı. Bu mötəbər sənədlə "Bir millət, iki dövlət" düşüncəsi bütün tərəfləri ilə reallaşmış oldu. Yaşasın, Azərbaycan və onun Böyük qardaşı Türkiyə.

**Yazıçı-şair Aqşin Yenisey:**



Birmənalı şəkildə bu qələmiz tarixi qələbədir və Türkiyənin burda rolunun olması xüsusi bir gözəllikdir. Bəyannamənin imzalanması isə aydın məsələdir ki, tarixə öz damğasını vurdu. İki qardaş dövlətin bu birliyi nəinki Erminəstana, bu ərazilərdə gözü olan hər bir dövlətə göz dağıdır.



**Şair, Ümid Partiyasının sözçüsü Elşad Barat:**

Öncə deyim ki, Şuşa bəyannaməsi tarixi bir hadisədir. Son 50, 100 ilin ən əhəmiyyətli hadisələrindən biridir. Bu bəyannamənin məhz Şuşada imzalanması, Türkiyə prezidenti sayın Ərdoğanın səfəri heç də təsadüfi deyil. Bu bəyannamə həm də Cənubi Qafqaza, dünyaya verilən mesaj idi. Türkiyə-Azərbaycan qardaşlığının, dostluğunun mesajı idi, ayrilmazlığının mesajı idi. Təbii ki, Azərbaycanı sevməyən, bu bəyannamənin bağlanmasını istəməyən tərəflər də gördü ki, biz tarixi torpaqlarımıza sahib çıxmaqda qərarlıyıq. Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır, 300 illik tarixi torpağımızdır.

**Orxan Saffari**